**Famil Vəli oğlu Rüstəmov**

**UOT:338.4; JEL:L66;L67.**

# Müasir iqtisadi şəraitdə ərzaq bazarının inkişafının əsas xüsusiyyətləri

***Xülasə***

*Təqdim olunmuş məqalədə Azərbaycanda ərzaq bazarında mövcud vəziyyət araşdırılmış və onun əsas inkişaf xüsusiyyətlərinəbaxılmışdır. Tədqiqatın əsas məqsədi Azərbaycanda ərzaq bazarınınınkişafının mühüm istiqamətlərini müəyyənləşdirməkdir. Tədqiqatın metodologiyası kimi təhlil olunan sahə üzrə məlumatların iqtisadi-statistik vasitələrlə tədqiqi seçilmişdir. Məqalənin tətbiqi əhəmiyyəti alınan nəticələrin ölkədə aqrar sektorun inkişafında istifadəsinin mümkünlüyüdür. Tədqiqatın əsas nəticələri kimi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sektorun inkişafının zəruri olduğu göstərilmişdir. Aparılmış tədqiqat əsasında elmi yeniliklər kimi ərzaq bazarının fəaliyyətinin tənzimlənməsinin ölkənin aqrar sektorunun rəqabətqabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərməsi elmi baxımdan əsaslandırılmışdır. Həyata keçirilmiş təhlil əsasında ərzaq bazarının fəaliyyəti istiqamətində mövcud problemlər tədqiq olunmuş və onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *ərzaq bazarı, milli iqtisadiyyat, inkişaf, tənzimləmə, sahibkarlıq, məhsul*

## Giriş

Son illər ölkəmizin kənd təsərrüfatı sahəsinin inkişafı istiqamətində dövlət səviyyəsində bir sıra məqsədəuyğun tədbirlər həyata keçirilməkdədir. Nəzərə almaq lazımdır ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı sahəsinin rolu böyükdür. Ümumiyyətlə, ərzaq təhlükəsizliyi dövlətin iqtisadi inkişaf konsepsiyasının həyata keçirilməsinin mühüm istiqamətlərindəndir. Ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissələrindən biridir. Onun təmin edilməsində bir sıra amillər mühüm rol oynayır. Onlara bunlar aiddir: kənd təsərrüfatı üzrə istehsal imkanlarının mövcudluğu, istehsal prosesinin səmərəli həyata keçirilməsi, məhsulun keyfiyyətinin təmin olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksək olması və s. Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində dövlətin ehtiyyat fondlarının yerli istehsal hesabına həyata keçirilməsi zəruridir. Kənd təsərrüfatı sahəsində yerli istehsalın artırılmasında mühüm məqsədlərdən biri dövlətin iqtisadi maraqlarının qorunmasıdır. Bundan başqa ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün daxili bazarın xarici təsirlərdən qorunması da vacibdir. Kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasının və onun tələb olunan ixrac səviyyəsinə çatdırılmasında bu sahə üzrə sahibkarlıq fəaliyyəti mühüm rol oynayır. Ölkədə ərzaq təminatının yüksəldilməsi vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasına birbaşa səbəb olur [1]. İnkişaf etmiş ölkələrdə daxili ərzaq bazarının qorunması, eyni zamanda vətəndaşların ərzaq məhsullarına, emal sənayesinin isə xammala olan tələbatının ödənilməsi əsas prioritetlərdən hesab olunur. Bu proses milli iqtisadi sahələrin modernləşdirilməsi və diversifikasiya edilməsində özünü daha çox göstərir. Ümumidaxili ərzaq bazarında keyfiyyətli məhsul istehsalının artırılması aqrar sahənin dayanıqlı inkişafı ilə sıx bağlıdır. Müasir rəqabət mühitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunması zəruridir [2]. Daxili ərzaq bazarında keyfiyyətli məhsul istehsalının artırılması vacibdir. Bu proses aqrar sahənin dayanıqlı inkişafı ilə sıx əlaqəlidir. Azad rəqabət şəraitində daxili tələbatı tam ödəmədən və iqtisadi inkişafı təmin etmədən aqrar



*©Famil Vəli oğlu Rüstəmov i.f.d., AMEA İqtisadiyyat İnstitutu, "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri" şöbəsi. E-mail: familrustamov456@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

sahədə inkişafa nail olmaq mümkün deyildir. Eyni zamanda istehsal olunan ərzaq məhsullarının keyfiyyətini yaxşılaşdırmaq zəruridir. Daxili ərzaq bazarının ərzaq məhsulları ilə təminatında aqrar sahədə istehsalın rəqabət səviyyəsinin yüksəldilməsi vacibdir. Bu proses daxili ərzaq bazarının rəqabətə davamlı məhsullarla təmin edilməsində mühüm rol oynayır. Aqrar sahədə rəqabət imkanlı ərzaq məhsullarının istehsalının təmin olunması daxili ərzaq bazarında idxal məhsulları ilə rəqabət imkanlarını da artırır. Azərbaycanda regionlarda ərzaq məhsullarının əksəriyyətinin istehsalı və emalı sahələri müqayisəli üstünlüyə malikdir. Bütün bunlar ölkənin yeyinti qida məhsulları ilə özünü təmin etməsi və beynəlxalq əmək bazarında fəal iştirak etmək imkanlarının olmasını sübut edə bilir [3].

**Ərzaq bazarının inkişaf etdirilməsinin əsas xüsusiyyətləri**

Respublikamızda daxili bazarın ərzaqla təminatının yaxşılaşdırılmasına daha çox diqqət ayrılır. Bu siyasətin təkmilləşdirilməsi, eyni zamanda bu istiqamətdə iqtisadi stimullaşdırma vasitələrə əsaslanan müvafiq tənzimləmə mexanizmlərinin formalaşdırılması və inkişafı istiqamətində ciddi işlər həyata keçirilməkdədir. Azərbaycan vətəndaşlarının keyfiyyətli və çox çeşidli ərzaq və kənd təsərrüfatı məhsullarına olan tələbatının tam ödənilməsini təmin edən milli ərzaq bazarının formalaşdırılması və inkişaf etdirilməsi vacibdir. Ərzaq bazarının dayanıqlı inkişafında səmərəli qiymət mexanizminin reallaşdırılması mühüm rol oynayır. Ərzaq məhsulları istehsalçıları istehsal prosesinə başlamazdan öncə istehsal olunan məhsulların qiymətlərini (qiymət marketinqinə uyğun olaraq) müəyyən edirlər. Bu zaman qiymət siyasəti vasitəsilə məhsul istehsalına çəkilən xərclər reallaşdırılır. Ərzaq məhsulunun istehsalına çəkilən xərclərin ödənilməsi üçün təyin edilmiş qiymət istehsalçının maraqlarına uyğundur [4]. Ölkədə ərzaq bazarında qiymət qoyma prosesində istehsalçının əsas məqsədi ən yüksək mənfəət əldə etməsidir. O əmtəənin fərdi xüsusiyyətlərindən asılı olaraq (məhsulun tez xarab olması, keyfiyyətinin aşağı düşməsi) rəqabət mühiti şəraitində bazarda öz mövqeyini təyin edə bilməlidir.



Ümumiyyətlə, istehsalçı tərəfindən ərzaq bazarının öyrənilməsində ilkin məqsəd istehlakçılara olan tələbi müəyyən etməkdir. bazarda olan tələbdən asılı olaraq qiymətin müəyyənləşdirilməsi birbaşa istehlakçıların alıcılıq qabiliyyəti və məhsulun keyfiyyəti ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, daxili bazarda əgər alıcı tərəfin alıcılıq qabiliyyəti yüksəkdirsə, qiymətlər yüksək olsa belə öz tələbatına uyğun və keyfiyyətli məhsul əldə edə bilir. Alıcının alıcılıq qabiliyyəti aşağı olduqda isə tələbi azalır. Nəticədə alıcı keyfiyyətli deyil, daha çox aşağı qiymətli məhsulu almağa meyllənir. Göründüyü kimi birinci vəziyyət istehsalçının mənfəətinə müsbət, ikinci halda isə mənfi təsir göstərə bilir. Ölkədə ərzaq bazarının öyrənilməsində istehsalçının ilkin məqsədi istehlakçının tələbini müəyyən etməkdir. Daxili bazarda qiymətlərin müəyyənləşdirilməsi və dəyişməsi tələbdən asılı olaraq istehlakçıların alıcılıq qabiliyyəti və məhsulların keyfiyyəti ilə bağlıdır. Ümumiyyətlə, daxili ərzaq bazarında qiymət istehsalçılarla istehlakçılar arasında münasibətləri ifadə edir. Milli iqtisadiyyatın fəaliyyətinə qiymət tənzimləyici təsir göstərən əsas vasitəsidir.

Ölkədə ərzaq bazarının inkişafında kənd təsərrüfatı sahəsinin ümui məhsulunun illik artım tempi də müsbət təsir göstərir. Son dövrlər Azərbaycan Respublikasında bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsul istehsalı üzrə ümumi dinamikasında artım prosesi müşahidə olunmaqdadır [7]. Məsələn, 2005-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə faktiki qiymətlərlə 1844,8 mln. manat məhsul istehsal olunmuşdur. 2010-cu ildə isə bu göstərici artaraq 3877,7 min manat olmuşdur. 2015-ci ildə bu göstərici 2005-ci illə müqayisədə 3 dəfə artaraq 5635,3 mln. manata çatmışdır. 2019-cu ildə isə 2018-ci illə (7010 min manat) müqayisədə kənd təsərrüfatının ümumi istehsal məhsul həcmi artmışdır. 2019-cu ildə bu göstərici 7836,7 mln. manat olmuşdur. Artımın əsas səbəbləri kimi kənd təsərrüfatı sahəsində dövlət dəstəyinin yüksəlməsi, bu sahədə fəaliyyət

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

göstərən sahibkarların sayının artmasıdır. Bu proseslərə eyni zamanda yerli istehsal olunmuş kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və regional dövlətlərə ixrac həcminin yüksəlməsi də müsbət təsir etmişdir. Respublikada istehsal olunan ərzaq məhsullarının keyfiyyətinin yaxşılaşdırılması və qiymətlərin təkmilləşdirilməsi nəticə etibarı ilə təşviqləndirici tədbirlər ilə müşayiət edilir.

Ümumiyyətlə, yerli istehsalın ölkənin tələbatını ödəməsi məqsədilə stimullaşdırılması, idxal prosesinin tənzimlənməsini zəruri edir. Azərbaycana gətirilən ərzaq məhsullarının həcmi və qiymətinin daxili bazarın qorunması şərti ilə tənzimlənməsi vacibdir. Daxildə istehsal olunan yerli məhsulların idxal məhsulları ilə rəqabət aparmaq imkanlarının yüksəldilməsi ərzaq bazarının fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsinin əsas prioritetlərindəndir [5]. Azərbaycanda rəqabətə davamlı kənd təsərrüfatı məhsullarının idxalının təmin olunması, məhsul istehsalının həcminin artırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi mütləqdir. Müvafiq istiqamətdə aqrar sahədə lizinq xidmətinin, texniki xidmət və təmirvə bərpa işlərinin yerinə yetirən müəssisələrin fəaliyyətinin genişləndirilmnəsi zəruridir. Azərbaycanda ərzaq bazarının fəaliyyət mexanizminin təkmilləşdirilməsini təmin etmək məqsədilə aqrar sahənin inkişafı ilə bağlı stimullaşdırıcı tədbirlərinin hazırlanması orta bir dövrü əhatə etməlidir. Aqrar sahədə istehsalda birbaşa və ya dolayı olaraq iştirak edən, eləcə də istehsala xidmət göstərən iqtisadi sahələrin fəaliyyət mexanizmləri əlaqələndirilməlidir.

Son illər Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti üzrə əldə oluan ümumi gəlirlərdə ciddi dəyişikliklər qeydə alınmışdır. Məsələn, 2005-ci ildə ölkəmizdə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin gəlirləri 14757 min manat olmuşdur [7]. 2010-cu ildə isə gəlirlər artaraq 71604 min manata çatmışdır. 2015-ci ildə bu göstərici 2005-ci illə müqayisədə 6 dəfə artaraq 84990 min. manat təşkil etmişdir. Kənd təsərrüfatı müəssisələrində 2018-ci illə müqayisədə 2019-cu ildə ümumi gəlirin həcmi artaraq 190080 min manata çatmışdır. Aparılmış təhlil onu göstərir ki, ölkəmizdə kənd təsərrüfatı sahəsinə dövlət diqqətinin artması nəticəsində bu sahədə gəlirlərin həcmi də artmaqdadır. Ərzaq bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan ictimai mühitin və ərzaq məhsulları istehsal sahəsinin inkişafının hüquqi bazasının təmin olunması vacibdir. Belə ki, dövlətin iqtisadi funksiyalarından daha çox qanunvericilik fəaliyyəti daha aktiv olmalıdır. İqtisadi qərarlar qəbul olunmasının hüquqi əsaslarını yaratmaq məqsədilə dövlət müvafiq qanunlar işləyib hazırlayır. Respublikada ərzaq məhsulları istehsalı sahəsində də sahibkarlıq fəaliyyətinə nəzarət etmək məqsədilə müəssisə və şirkətlər arasında, onların iqtisadi münasibətlərini tənzimləmək məqsədilə dövlət iqtisadi prosesləri tənzimləyə bilir. Son illər vətəndaşların bazar sisteminə inamını təmin etmək üçün ərzaq məhsullarının keyfiyyətini, qiymətlərini stabil saxlamaq üçün ciddi tədbirlər həyata keçirilir. Rəqabət mühitinin qorunub saxlanılması da dövlətin bu sahədə həyata keçirdiyi mühüm tədbirlərdəndir.

Aparılmış təhlillər onu göstərir ki, dövlətin ərzaq bazarının fəaliyyətinin tənzimlənməsinə yönəlmiş tədbirlər birbaşa və dolayı metodlarla həyata keçirilir. Məsələn, dövlətin birbaşa təsiri əsasən inzibati tədbirlər yolu ilə reallaşdırılır ki, bu zaman ərzaq məhsulları istehsalçı müəssisələrinin gəlirlik səviyyəsinin aşağı və yuxarı hədlərinin müəyyən edilməsi, nəzarət orqanlarının yaradılması da bura daxil edilir.Ərzaq bazarının fəaliyyətini tənzimləyən dolayı metodlar isə mümkün inhisarçılığa qarşı yönəlmiş qanunvericilik və normativ aktları özündə ehtiva edir. Nəzərə almaq lazımdır ki, dövlətin himayəçilik sistemi dövlətin iqtisadiyyatda proteksionist siyasət aparmasını təmin edir. Bu siyasət əsasən gömrük rüsumları vasitəsilə reallaşdırılır [6].Qeyd edilən himayəçilik sisteminin reallaşdırılmasının dolayı metodlarına ərzaq və kənd təsərrüfatı məhsulları istehsalçılarına ayrılan dotasiyalar, subsidiyalar daxil olunur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan Respublikasında son illər kənd təsərrüfatında təsərrüfatların sayının dəyişmə dinamikasında azalma tempi müşahidə olunmaqdadır. Belə ki, kənd təsərrüfatında fərdi sahibkarların fəaliyyətinin maliyyə nəticələrinin təhlili onu göstərir ki, 2005-ci ildə ölkədə 2681 təsərrüfatı mövcud ididə, 2015-ci ildə bu göstərici azalaraq 1534 vahid olmuşdur [7]. Mənfi azalma tendensiyasının qeydə alınmasına baxmayaraq 2018-ci illə müqayisədə 2019-cu ildə aqrar sahə üzrə təsərrüfatların sayı artaraq 910 vahid olmuşdur.Təhlildən də göründüyü kimi 2005-2019-cu illər ərzində kənd təsərrüfatı sahəsində təsərrüfatların sayında azalma tendensiyası müşahidə olunmuşdur. Məhz buna görə də kənd təsərrüfatı sahəsində mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafının stimullaşdırılması istiqamətində məqsədəuyğun tədbirlər həyata keçirilməlidir. Daxili ərzaq bazarında iqtisadi münasibətlərin normal və səmərəli fəaliyyətini təmin etmək dövlətin əsas vəzifələrindəndir. Ərzaq bazar mexanizmi öz funksiyalarının hamısını sərbəst yerinə yetirmək imkanlarına malik deyildir. Müasir bazar iqtisadiyyatı şəraitində ərzaq bazarının səmərəli fəaliyyət göstərməsi, burada azad rəqabətin təmin olunması, onun xarici bazarların təsirindən qorunması, təminatlı ərzaq bazarının yaradılması tədbirlərinin reallaşdırılması, normal ictimai mühit və hüquqi bazanın yaradılması tələb olunur. Qeyd olunan mürəkkəb ictimai-iqtisadi proseslərin idarə olunması dövlətin iqtisadiyyata müdaxiləsi ilə iqtisadi və qeyri-iqtisadi vasitələrdən istifadə etməklə reallaşdırılır. Ümumiyyətlə, bazar münasibətləri o cümlədən ərzaq bazar münasibətləri dövlətin əsasən müdaxiləsi yolu və tənzimlənir.

Müasir iqtisadi şəraitdə ərzaq bazarının fəaliyyətinin tənzimlənməsinin mühüm istiqamətlərindən biri də qiymət siyasəti ilə bağlıdır. Bu zaman dövlət ərzaq bazarında qiymətlərin səviyyəsinə təsir göstərməklə, gəlirləri yenidən bölüşdürmək və ya istehsalın müəyyən sahələrini təşviqləndirməklə bir sıra problemləri həll edir. Burada əsas məqsəd ərzaq bazarının fasiləsiz olaraq ərzaq məhsulları ilə təmin olunması, eləcə də dünya ərzaq bazarına çıxarılacaq məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi məqsədilə istehsalın təşviqləndirilməsidir.Müvafiq tədbirlərin həyata keçirilməsində əsas istiqamətlərdən biri də ərzaq məhsullarının qiymətlərinin səviyyəsinin tənzimlənməsi hesab olunur. Qiymət tənzimlənməsi məhsulların maya dəyərilə bazar qiymətlərinin səviyyəsi arasındakı nisbətin pozulması şəraitində zəruri hesab olunur. Ərzaq bazarı üzrə istehlakçının məhsulunun maya dəyəri bazar qiymətlərinin səviyyəsindən yuxarı da ola bilir. Bu zaman ərzaq bazarında idxal məhsullarının qiymətləri yerli məhsulların qiyməti ilə müqayisədə aşağı səviyyədə müəyyən olunur. Bütün bunlar istehsalçının maliyyə vəziyyətinə birbaşa mənfi təsir göstərir.



Dövlət kənd təsərrüfatı sahəsində istehsal prosesinin başladığı ilk dövrlərdə qeyd olunan amilləri nəzərə alır. Bu zaman təyinatlı qiymət müəyyənləşdirilir. İstehsalçı əvvəlcədən məhsulların qiymətlərinin səviyyəsinə təminat almış olur.Müvafiq proseslərin həyata keçirilməsi üçün ərzaq bazarında qiymətlərin dinamikası müşahidə olunur. Bundan sonra qiymətlərin səviyyəsinə müdaxilə olunur. Eyni zamanda dövlət əmtəələrə güzəştli qiymətlər tətbiq etmək və qiymət üzərində nəzarət yolu ilə də onların səviyyəsinə təsir edə bilir. Ümumiyyətlə, tənzimləmə siyasətinin bu istiqaməti istehsalın stimullaşdırılmasına yönəldilməklə yanaşı kənd təsərrüfatında iqtisadi cəhətdən daha əlverişli məhsul növlərinin istehsal həcminin artırılmasına imkan yaradır, məhsulun keyfiyyətini yaxşılaşdırır, tələb və təklifin tarazlaşdırılmasını təmin edir.

**Müasir iqtisadi şəraitdə ərzaq bazarının inkişafının əsas perspektivləri**

Aparılmış təhlillər onu göstərir ki, ölkə üzrə daxili ərzaq bazarının qiymətlər vasitəsilə tənzimlənməsində əsas məqsədlərdən biri də vətəndaşların minimum yaşayış səviyyəsinin təmin edilməsi ilə bağlıdır.Məsələn, dövlət birbaşa minimum yaşayış səviyyəsi ilə bağlı "istehlak səbətinə" daxil olan məhsulların qiymətlərini tənzimləyə bilir. Bu da alıcılıq qabiliyyəti aşağı olan əhali qrupunun həyat şəraitinə müsbət təsir göstərir. Müvafiq proses

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vətəndaşların real pul gəlirləri ilə onların yaşayış minimumu arasındakı nisbətin qeyri-mütənasibliyi müşahidə olunan hallarda zəruridir. Müvafiq vəziyyət istehlakçıların həyat şəraitini ağırlaşdıra bilir və ciddi sosial-ictimai nəticələrə gətirib çıxara bilir. Yaranan problemlərin qarşısının alınması üçün qiymətlərin səviyyəsinə dövlət müdaxiləsi, yaxud onun tənzimlənməsi məqsədəuyğundur.Daxili ərzaq bazarında məhsulların qiymətləri və bazarda yaranan iqtisadi münasibətlərin böyük hissəsi tələb və təklif əsasında formalaşır. Nəzərə alaq ki, tələb və təklif əmtəə-pul münasibətləri sahəsində iqtisadi proseslərin qarşılıqlı asılılığına əsaslanaraq istehsalla istehlakı əlaqələndirir. Bəzən ərzaq bazarında tələb və təklif arasında tarazlıq pozulur. Bu zaman əmtəələrin satışı üzrə normal şərait pozulur. Müvafiq halda dövlət ərzaq bazarında qiymətlərin tənzimlənməsini həyata keçirir. Məsələn, ərzaq bazarı üzrə dövlət qiymətlərin səviyyəsinə müdaxilə etməklə tələb və təklif arasında optimal nisbət yaratmaqla yanaşı, bazarda əlverişli rəqabət mühiti formalaşdırır. Müasir bazar mexanizminin tərkib hissəsi olan rəqabət də ərzaq bazarının tənzimlənməsində mühüm rol oynayır. Ərzaq bazarında satılan əmtəə təklifi ona olan tələbi keçirsə, istehsalçılar arasındakı rəqabət onların öz məhsullarının keyfiyyətini və çeşidini yüksəltməsinə səbəb olur. Nəticədə bunlar yüksək mənfəət əldə etmək istəyən istehlakçının və yüksək keyfiyyətli məhsula olan tələbatını ödəməkdə istehlakçının mənafeyinin əlaqələndirilməsinə gətirib çıxarır. Bəzən ölkədə ərzaq bazarında əmtəələrin qiymətlərinin səviyyəsi süni şəkildə artırılır və rəqabətin rolu məhdudlaşdırılır. Bu proses ərzaq bazarının fəaliyyətinə mənfi təsir edir. Ona görə də bu cür hallar yarandıqda ərzaq bazarında qiymətlərin səviyyəsinə dövlət müdaxiləsi zəruridir.

Hər bir ölkə üzrə iqtisadi inkişafın təmin olunmasında ərzaq məhsulları bazarının səmərəliliyini müəyyənləşdirmək vacibdir. Azərbaycanda ərzaq məhsulları bazarının səmərəliliyi ilk öncə onun fəaliyyətinin dövlət tərəfindən düzgün tənzimlənməsindən asılıdır. Müvafiq istiqamətdə ərzaq məhsulları istehsalçıları ilə istehlakçılar arasında, ərzaq məhsulları istehsalında iştirak edən maddi-texniki resurslar, iş və xidmətlərlə istehsal prosesinin qarşılıqlı əlaqələrini inkişaf etdirmək imkanları vardır. Ərzaq məhsulları bazarının tənzimlənməsi əsasən dövlət müdaxiləsi ilə reallaşdırılır. Daxili bazarda rəqabət mühiti gücləndikcə bazarın özünü tənzimləmə funksiyasının da həyata keçirilməsinə münasib imkanlar formalaşır. Aparılmış təhlillər onu göstərir ki, ərzaq məhsulları bazarının fəaliyyətinin tənzimlənməsinin zəruriliyi aşağıdakı amillərin təsiri ilə səciyyələnir:

- vətəndaşların daxili ərzaq tələbatının ödənilməsi və iqtisadi təhlükəsizliyin təmin olunması. Bundan başqa əmtəə istehsalı elə səviyyədə olmalıdır ki, idxal-ixrac əməliyyatlar hər iki şərti təmin etsin;
- ərzaq məhsullarının istehsalında istifadə olunan maddi-texniki resursların, iş və xidmətlərin qiymətləri ilə əmtəələrin qiymətlərinin artım tempi arasında tarazlığın təmin olunması;
- regionlarda ərzaq bazarı üzrə rəqabət mühiti yaratmaqla inhisarçılığın aradan qaldırılması. Ərzaq bazarının fəaliyyətində bəzən əsas ərzaq məhsullarının satışı bir neçə satıcının vasitəsilə həyata keçirilir. Bu zaman yaranmış hal həm istehsalçının, həm də istehlakçının gəlirlərinə mənfi təsir edə bilir [6];
- təbii-iqlim amillərinin kənd təsərrüfatı və ərzaq məhsulları bazarlarının səmərəliliyinə təsiri. Əlverişsiz təbii-iqlim şəraitində məhsul istehsalında kəskin itkilər yaranır. Nəticədə təkmil sığorta sisteminin formalaşdırmaqla təkrar istehsalın təşkilinə zəmin yaranır. Nəzərə almaq lazımdır ki, ərzində əlverişli təbii iqlim şəraiti olduqda isə təklifin artması müşahidə olunur. Nəticədə ərzaq və kənd təsərrüfatı məhsulları qiymətləri aşağı düşür.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İqtisadi asılılıq istehlakçıların alıcılıq qabiliyyəti ilə tələbləri arasında da vardır. Məsələn, alıcılıq qabiliyyəti aşağı düşdükdə istehlakçı tələbatını ödəyə bilmir. Eyni zamanda istehsalçı əmtəəni münasib qiymətə satmaqda çətinliklə qarşılaşır. Ümumiyyətlə, alıcılıq qabiliyyətinin yüksəlməsi tələbin artmasına, eləcə də qiymətlərin artması nəticəsində əmtəə istehsalçısının gəlirlərinin artmasına səbəb olur. Araşdırma onu göstərir ki, vətəndaşların gəlirləri və xərcləri ilə ərzaq məhsulları istehsal müəssisələrinin gəlirləri arasında mütənasiblik vardır [5]. Ümumiyyətlə, ərzaq və kənd təsərrüfatı məhsulları istehsalının mövsümi xarakter daşıması, kapital qoyuluşunun ödəmə müddətinin uzun dövrlə əhatə edilməsi, bəzi məhsul növlərinə olan təklifin dövrü səciyyə daşıması ərzaq məhsulları bazarının tənzimləmə tədbirlərinin ardıcıl həyata keçirilməsini zəruri edir. Əsasən postsovet məkanı ölkələrində (o cümlədən, Azərbaycanda) dövlət səviyyəsində tənzimləmə prosesində qeyri-iqtisadi və iqtisadi metodlardan istifadə olunur. Qeyri-iqtisadi metod (inzibati metod) qanunvericiliklə bağlı məsələləri əhatə edir. İnhisarçılığın aradan qaldırılması və rəqabət mühitinin formalaşdırılması məqsədilə "Antiinhisar fəaliyyəti haqqında", müasir vergi sistemi formalaşdırmaq üçün "Vergi xidməti haqqında" qanunlar və digər normativ hüquqi sənədlər qeyri-iqtisadi metodlar hesab olunur. Nəzərə almaq lazımdır ki, qeyri-iqtisadi metodlar iqtisadi metodlarda qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Ərzaq məhsulları bazarının tənzimlənməsində istifadə olunan iqtisadi vasitələr bunlar hesab olunur: qiymət, pul-kredit, büdcə, vergi, gömrük və sığorta sistemləri. Aparılmış təhlil onu göstərir ki, dövlət tərəfindən iqtisadi vasitələrlə ərzaq məhsulları bazarının tənzimlənməsinin əsas istiqamətlərinə aşağıdakılar aid olunmalıdır:

- Azərbaycanda istehsal olunan ərzaq məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsini və ekoloji təmiz məhsul istehsalını təşviqləndirməklə onların beynəlxalq ərzaq bazarına ixracının təmin olunması;
- kənd təsərrüfatı üzrə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsini təmin etmək məqsədilə müasir innovativ texnologiyaların istehsal prosesinə geniş miqyaslı tətbiqinə şəraitin formalaşdırılması;
- ölkədə ərzaq məhsul istehsalçılarının gəlirlərinin təkrar istehsal prosesini həyata keçirə biləcək səviyyəsinə stimul yaradılması;
- regionlar üzrə ərzaq məhsulları istehsalının təşviqləndirilməsi, eləcə də daxili ərzaq bazarının qorunması.

Bu və digər məsələlərin həllində hər bir iqtisadi vasitənin xüsusiyyətlərini və bir-birilə qarşılıqlı əlaqələrini nəzərə almaq zəruridir. Ümumiyyətlə, daxili ərzaq bazarında ərzaq məhsullarının qiymətlərinin tənzimlənməsi prosesi vətəndaşların alıcılıq qabiliyyətinin, büdcədən əmək haqqı, pensiya, müavinətlərin səviyyəsi nəzərə alınmaqla həyata keçirilir. Ərzaq bazarının fəaliyyətinin dövlət tənzimlənməsində qiymətlərin tənzimlənməsi prosesi əsas vasitə hesab olunur [4]. Nəzərə almaq lazımdır ki, qiymət tənzimlənməsini birbaşa və dolayı yollarla həyata keçirmək mümkündür. Qeyd etmək lazımdır ki, birbaşa tənzimləmə istehsala və istehlakçılara qiymət artımı, yaxud azalma nəticəsinə görə subsidiya, digər birbaşa ödəmələri, inhisarçılıq şəraitində fərqli qiymətlərin təyinini (qiymətlərin aşağı və yuxarı həddi üzrə) nəzərdə tutur. Ərzaq bazarının birbaşa dolayı yolla tənzimlənməsinə ölkə üzrə vergi dərəcələrinin dəyişdirilməsi, gömrük rüsumlarında dəyişikliklər, tələb və təklifin səviyyəsinə təsir aid olunur.

**Nəticə**

Qeyd etmək lazımdır ki, vergi dərəcələri və gömrük rüsumlarının tətbiqi nəticə olaraq ərzaq bazarında əmtəələrin maya dəyərinə təsir göstərir və qiymətlərin formalaşmasında mühüm rol oynayır. Bu vasitə ilə yerli ərzaq bazarında ərzaq məhsullarının idxal məhsulları tərəfindən sıxışdırılmasının qarşısını almaq, daxili bazarı qorumaq olar. Ümumiyyətlə, ərzaq



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məhsulları bazarının dövlət tərəfindən tənzimlənməsi prosesində pul-kredit sisteminin iqtisadi mahiyyətini pul tədavülünün sabitləşdirilməsi, kredit faizlərinin sosial-iqtisadi proseslərin inkişaf istiqamətlərindən asılı olaraq müəyyən olunması, kreditlə olan tələbatın ödənilməsi, ayrılmış kreditlərdən istifadəyə nəzarət edilməsi təşkil etdiyini qeyd etmək lazımdır. Bundan başqa kreditlərin verilməsi büdcə sistemi ilə bağlıdır. Məsələn, dövlət büdcədən güzəştli kreditlər ayırmaqla həm istehsala vəsait qoyuluşunun artımına şərait yaradır, eyni zamanda bu sahənin maddi-texniki resurslarla təminatında iştirak edir. Bəzən kənd təsərrüfatı istehsalının dəstəklənməsi məqsədilə dotasiya və subsidiyalar da ayrılır. Ölkə üzrə ərzaq bazarının fəaliyyət mexanizminin dövlət səviyyəsində iqtisadi vasitələrlə tənzimlənməsində vergi sisteminin rolu çox böyükdür. Məsələn, vergi dərəcələrinin yüksəldilməsi hesabına dövlət kənd təsərrüfatı ilə maddi-texniki resurslar, eləcə də iş və xidmətlər sferası arasında gəlirlərin mütənasibliyini tənzimləmək iqtidarında olur. Kənd təsərrüfatı sahəsində güzəştli vergi dərəcələrinin tətbiqi, bəzi vergi növlərinin aradan qaldırılması, digər iqtisadi sahələrdə isə vergi dərəcələrinin artırılması hesabına qeyd olunan mütənasiblik təmin oluna bilir. Bəzən vergi dərəcələrinin aşağı salınması hesabına iqtisadi sahələr üzrə istehsalı təşviqləndirmək olar. Ölkədə idxal rüsumlarını artırılması hesabına dövlət daxili ərzaq bazarının qorunmasını və istehsalın təşviqləndirilməsini təmin edə bilir. Dövlət rüsumları aşağı salmaqla, ərzaq məhsulları bazarının zəruri məhsullara olan tələbatını ödəyir. İxrac rüsumlarının azaldılması ixracın stimullaşdırılmasına, əksinə yüksəldilməsi isə daxili ərzaq bazarının ehtiyacı olduğu məhsul ixracının qarşısının alınmasını təmin edə bilir. Ümumiyyətlə, yaxın dövrlərdə ərzaq bazarının və onun ayrı-ayrı məhsul seqmentlərinin (əsas növ ərzaq məhsulları üzrə) inkişaf strategiyasının formalaşdırılması istiqamətində dövlətin rolunun artırılması məqsədəuyğundur.



**Ədəbiyyat**


1. Aliyev. İ. H. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri, Bakı: Elm, 2007, 227 s
2. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri, Bakı.: Kooperasiya nəşr. 2005.
3. Qulıyev E.A. Aqrar iqtisadiyyat. Baki.: Kooperasiya nəşr., 2015, 320 s.
4. Qulıyev E. A Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Bakı.: Kooperasiya, 2013, 254 s
5. Abdullayev K.N. Müasir iqtiadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri"İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans (8-9 iyul 2020-ci il) Sumqayıt Dövlət Universiteti. Sumqayıt.: SDU nəşr., 2020, s. 455-459
6. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Восток-Запад, 2018, 224 с.
7. www.stat.gov.az/ statistik göstəricilər 2020


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Фамил Вели оглы Рустамов***
***Доктор философии по экономики, Институт Экономики НАНА, отдел «Аграрных реформ и проблем продовольственной безопасности»***

***Основные особенности развития продовольственного рынка в современных экономических условиях***

***Резюме***

*В статье была изучена текущая ситуация на продовольственном рынке Азербайджана и рассмотрены основные особенности его развития. Основная цель исследования определить основные направления развития продовольственного рынка в Азербайджане. В качестве методики исследования были выбраны экономико-статистические с исследования данных по анализируемой области. Прикладное значение статьи заключается в возможности использования полученных результатов в развитии аграрного сектора в стране. Результаты исследования показывают, что развитие аграрного сектора важно для повышения продовольственной безопасности страны. На основе проведенного исследования научно обосновано положительное влияние регулирования деятельности продовольственного рынка на повышение конкурентоспособности аграрного сектора страны. На основе проведенного анализа были изучены существующие проблемы в сфере деятельности продовольственного рынка и выдвинуты предложения и рекомендации по их устранению.*

***Ключевые слова:*** *продовольственный рынок, национальная экономика, развитие, регулирование, предпринимательство, продукт.*



***Famil Veli oglu Rustamov***
***Ph.D. in Economics, Institute of Economics of ANAS, department "Agrarian reforms and food security problems"***

***The main features of the development of the food market in modern economic conditions***

***Summary***

*The article examines the current situation in the food market in Azerbaijan and considers its main development features. The main purpose of the study is to identify the main directions of development of the food market in Azerbaijan. The study of data on the analyzed area by economic-statistical means was chosen as the methodology of the research. The importance of the application of the article is the possibility of using the results obtained in the development of the agricultural sector in the country. The results of the study show that the development of the agricultural sector is important in improving the country's food security. On the basis of the research, it was scientifically substantiated that the regulation of the food market as a scientific innovation has a positive effect on increasing the competitiveness of the country's agricultural sector. Based on the analysis, the existing problems in the food market were studied and suggestions and recommendations were presented to eliminate them.*

***Keywords:*** *food market, national economy, development, regulation, entrepreneurship, product*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 03.08.2021.***
***Çapa qəbul olunub: 10.08.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*